Leyla MƏMMƏDOVA
Filologiya elmləri doktoru, dosent
AMEA Folklor İnstitutu
E-mail:leyla.kamranqizi@gmail.com
ORCID ID: 0009-0003-1498-8558
https://doi.org/10.59849/2309-7949.2026.2.63

FOLKLOR MƏTNLƏRİNİN YAZILI ƏDƏBİYYATA TRANSFORMASİYASI: ƏLİ ƏMİRLİNİN "SEHİRLİ ALMA" KOMEDİYASI

Açar sözlər: folklor, yazılı ədəbiyyat, transformasiya, Əli Əmirli, ənənə, müasirlik

АННОТАЦИЯ

ТРАНСФОРМАЦИЯ ФОЛЬКЛОРНЫХ ТЕКСТОВ В ПИСЬМЕННУЮ ЛИТЕРАТУРУ: КОМЕДИЯ АЛИ АМИРЛИ «ВОЛШЕБНОЕ ЯБЛОКО»

Образы, мотивы и сюжеты, составляющие устное народное творчество, проникали в письменную литературу с древнейших времён и оставили неизгладимый след не только в поэзии и прозе, но и в истории драматургии. Вопрос трансформации фольклорных текстов в письменной литературе ярко проявляется в комедиях Али Амирли. В этом отношении особый интерес представляет сказка-коллаж автора «Волшебное яблоко», состоящая из семи сцен.

Волшебное яблоко является одним из наиболее часто используемых и любимых мотивов в сказках и эпических сказаниях. Некоторые герои обращаются к данному мотиву, чтобы избавиться от бесплодия и обрести детей, другие же — чтобы омолодиться, обрести бессмертие и т. д. Одной из наиболее известных наших сказок, в которых встречается мотив волшебного яблока, является «Меликмамед»..Али Амирли также не остался равнодушным к этому известному мотиву и написал комедию «Волшебное яблоко». Как и в сказке «Меликмамед», в «Волшебном яблоке» одна из основных целей связана с деревом жизни, желаний и вечности, занимающим важное место в мировой мифологической модели. В обоих произведениях это событие происходит после того, как отец даёт поручение своему сыну. Поскольку наши сказки также в значительной степени воплощают национально-ментальные ценности, в сюжете безусловно выполняется слово отца, а в более широком смысле — родителя, старейшины, аксакала, старшего.

Однако, как и в других пьесах Али Амирли, здесь также отчётливо проявляются его индивидуальный художественный почерк и неповторимая манера подхода к материалу. Так, автор органично и уместно вводит современные оттенки в традиционный сюжет. Кроме того, современные, широко распространённые заимствованные слова, присутствующие в речи Меликмамеда и других персонажей, придают тексту особую интонацию и колорит. Как видно, в комедиях Али Амирли традиционность и современность проявляются в неразрывном единстве. То, что автор называет своего героя именем известного сказочного персонажа — Меликмамеда, — также не случайно. Ведь историческое прошлое каждого народа, его обычаи, традиции и другие положительные качества передаются в коллективную память именно посредством сказок.

В пьесе «Волшебное яблоко» наряду со сказочными сюжетами представлены и другие элементы фольклора. В частности, в ремарках сказки-коллажа чрезвычайно живо представлены праздник Новруз и мотивы Ахыр чершенбе — последней вторник перед Новрузом. Особо выделяется созвучие фольклорных жанров, к которым обращается сказка-коллаж «Волшебное яблоко», прежде всего сказок, с современной жизнью, а также введение современных оттенков в сюжет.

Ключевые слова: фольклор, письменная литература, трансформация, Али Амирли, традиция, современность

ABSTRACT

THE TRANSFORMATION OF FOLKLORE TEXTS INTO WRITTEN LITERATURE: ALI AMIRLI'S COMEDY "THE MAGIC APPLE"

The characters, motifs, and plots encompassing oral folk literature have permeated written literature since ancient times and have left indelible traces not only in poetry and prose, but also in the history of drama. The transformation of folklore texts within written literature is clearly manifested in the comedies of Ali Amirli. In this regard, the author's fairy-tale collage *The Magic Apple*, consisting of seven scenes, is particularly noteworthy.

The magic apple is one of the most frequently employed and beloved motifs in fairy tales and epic narratives. Some heroes turn to this motif in order to overcome infertility and have children, while others seek youth, immortality, and so forth. One of the most famous fairy tales containing the magic apple motif is "*Malikmammad"*. Ali Amirli has also drawn upon this well-known motif and written the comedy *The Magic Apple*. As in the fairy tale "*Malikmammad"*, one of the primary objectives in *The Magic Apple* is directed toward the tree of life, desire, and eternity, which occupies an important place in the world's mythological model. In both works, this event takes place after the father gives an assignment to his son. Since our fairy tales also strongly embody national and mental values, the father's — or, more broadly, the parent's, elder's, or respected elder's — word is unconditionally obeyed within the plot.

However, as in Ali Amirli's other plays, his distinctive artistic style and unique approach are unmistakably evident here as well. Thus, the author skillfully incorporates modern nuances into the traditional plot at appropriate points. Furthermore, the modern and widely used foreign words appearing in the speech of Malikmammad and the other characters add a distinctive rhythm and tone to the text. As can be seen, tradition and modernity are manifested in an intertwined manner in Ali Amirli's comedies. The author's decision to name his protagonist Malikmammad, after the famous fairy-tale hero, is by no means accidental. This is because the historical past, customs, traditions, and other positive qualities of every nation are transmitted into collective memory precisely through fairy tales.

Alongside fairy-tale plots, the play *The Magic Apple* also incorporates other elements of folklore. In particular, the Novruz celebration and the motifs of the final Wednesday before Novruz (*Axır Çərşənbə*) are presented in a remarkably vivid manner in the stage directions of the fairy-tale collage. The way the folklore genres — especially fairy tales — addressed in *The Magic Apple* resonate with contemporary life, together with the incorporation of modern nuances into the plot, is particularly noteworthy.

Keywords: folklore, written literature, transformation, Ali Amirli, tradition, modernity

Giriş. Folklor əsərlərinin yazılı ədəbiyyata təsiri, geniş oxucu auditoriyasına malik olmasını şərtləndirən cəhətlər çoxdur. Bildiyimiz kimi, folklor mətnlərini əhatə edən obraz, motiv və süjetlər yazılı ədəbiyyata qədim dövrlərdən sirayət etmiş, poeziya, nəsrlə yanaşı, dramaturgiya tariximizdə də silinməz izlər qoymuşdur. Sələfləri kimi, Əli Əmirli dramaturgiyasının da kəsərliliyini artıran özəlliyin əsasını ilk növbədə çağdaş dövrün tələbləri ilə ayaqlaşmaq, xalqın arzu-istəklərini təmin etmək, bəzi aktual mətləblərə bədii don geyindirməklə yanaşı, folklor əsərlərinin təsiri təşkil edir.

Folklor mətnlərinin yazılı ədəbiyyata transformasiyası məsələsi Əli Əmirli komediyalarında özünü açıqca göstərir. Bu baxımdan müəllifin "Sehirli alma" 7 səhnədən ibarət nağıl-kollajı maraq doğurur. Pyesin təhlilinə keçməmişdən öncə diqqət çəkən məqam pyesin adındakı "Sehirli alma" ifadəsidir. Bildiyimiz kimi nağıllarımızda ənənəvi sonluq "Göydən üç almanın düşməsi" ilə yadda qalır. Bu

barədə görkəmli folklorşünas alim, professor Ramazan Qafarlı maraqlı şərh verir: "... Azərbaycan xalq nağıllarının ən geniş yayılmış sonluğu "üç alma" söykənən bulmaca – söz oyunudur:

"Göydən üç alma düşdü,
biri mənim,
biri nağıl deyənin,
biri də özümün.

Dolamaları xatırladan bu sonluqda, əslində ən əski təsəvvürlər əks olunur. Başqa sözlə, fikirləri fırlatmaqla almaların üçünü də özünə götürmək motivi miflərdən alınmışdır. Diqqət yetirin: alma göydən düşür. Miflərdə Adəm və Həvva göydə yerləşən cənnət bağından alma oğurlayırlar. Ona görə yerə sürgün edilirlər. Dərvişlər ər-arvada üç alma verəndə onların üç övladı dünyaya gəlir və şərt kəsirlər ki, onlardan birini ona verməlidirlər. Qocaları cavanlaşdıran almalar da üçüncü təşəbbüsdə qorunur" (6, 245-246).

Göründüyü kimi, sehirli alma nağıl, dastan süjetlərin ən çox müraciət edilən, eləcə də sevilən motivlərindən biridir. Qəhrəmanların bəziləri sonsuzluqdan qurtulmaq, övlad yiyəsi olmaq, bəziləri isə cavanlaşmaq, ölümsüzləşmək üçün sözügedən motivə müraciət edirlər. Bəzən isə oğlanla qız bir-birilərinə alma bağışlamaqla və yaxud da atmaqla öz sevgi etiraflarını bildirirlər. Çağdaş günümüzdə də bəzi regionlarda toy zamanı gəlinin başına, duvağın üzərindən alma atmaq adəti mövcuddur. Alma çoxçeşidli şəkildə yozulsa da, bütün çeşidləri xarakterizə edən amal, məram birdir: ülvi, əlşatmaz arzuya yetmək.

Bildiyimiz kimi, sehirli alma motivinin yer aldığı nağıllarımızdan ən məşhuru "Məlikməmməd"dir. Qısa şərh verək ki, "Məlikməmməd" nağılında bir padşahın bağında alma ağacları yetişdirilir. Bu almaları yeyən kəs həmin dəqiqə cavanlaşar, on beş yaşında olardı. Lakin bu almalardan padşah heç cürə yeyə bilmirdi. Səbəb isə sehirli almaların gecə kiminsə tərəfindən gizlincə dərilməyi olur. Padşah sirli oğrunu tutmaq üçün oğlanlarını bir-bir səfərbər etsə də, onları gecə yuxu tutur, yenə də almalar səhərə qədər dərilir. Növbə Məlikməmmədə çatdıqda isə o barmağını kəsib, yarasına duz doldurur ki, yuxuya getməsin. Beləliklə, Məlikməmməd sirli oğrunun div olduğunu öyrənir. Uzun mübarizədən sonra Məlikməmməd qalib gəlir və atasının arzusunu həyata keçirir. Ümumiyyətlə, "Məlikməmməd"in süjetinin bədii mətnə köçürülməsi heç də təsadüfi deyildir. Bu məqamda Yusif Vəzir Çəmənzəminli doğru olaraq qeyd edir ki, bütün Azərbaycan nağılları içərisində "Məlikməmməd" nağılı tipik sanıldığı üçün bunun təhlili qeyrilərini də izah edər" (3, 278).

Sözükeçən mövzuya folklorşünas Atif İslamzadə isə belə münasibət bildirir: "Məlikməmməd" nağılında alma naturallıqdan daha çox həyat, dirilik və ölümsüzlük anlamını ifadə edir. Bu baxımdan alma ağacı da mifoloji dünya modelini, həyat ağacını işarələyir" (5, 59). "Məlikməmməd" nağılı klassik nümunə kimi yadda qalaraq, yazılı ədəbiyyatla yanaşı, hətta musiqi sahəsində də öz sözünü demişdir. Görkəmli bəstəkar, Azərbaycan Respublikasının xalq artisti Oqtay Zülfüqarov "Məlikməmməd" nağılı əsasında "Sehirli alma" baletini bəstələmişdir.

Məlum motivə Əli Əmirli də biganə qalmamış və "Sehirli alma" komediyasını qələmə almışdır. Burada da məqama çatmaq üçün həyat ağacına varmaq əsas məqsəd kimi götürülür. Əsərdə folklorla bağlılıq ilk səhnədən təqdim edilir. Göstərilir ki, Novruz şənliyidir, hamı deyib-gülür, əylənir. Bu əyləncənin içərisində bir tək padşah fikrə qərq olub. Əsas səbəb isə onun artıq qocalıb, əldən düşməsi göstərilir. Padşah bu "çıxılmaz vəziyyət"dən bir çarə axtarır ki, top dağıtmaz sarayından, taxt-tacında gümrah, cavan şəkildə uzun illər hökmranlıq etsin və bir gün ürəyini sevimli oğlu Məlikməmmədə açır. Söhbəti eşidən vəzir anidən padşahın istəyini cavablandırır. Vəzir deyir ki, Hindistan alimi Xaribxadranın "Şade-darşana-Samuççaya" kitabında deyilir ki, Məğribdə sehirli bir alma var, onu yeyən qoca on beş yaşında cavana dönür. Padşah bu fikirdən xoşallanır, necə deyərlər, əsl "İstədiyi yar idi, yetirdi Pərvərdigar" olur, Məlikməmməd söz verir ki, nəyin bahasına olursa-olsun, bu almaları tapıb atasının hüzuruna gətirəcək (4,726). Ümumiyyətlə, nağılların təsnifatında xüsusi yer tutan sehirli nağıllarda qəhrəmanın uzaq ellərə səfəri və olduğu yerlərdə sınaqlarla qarşılaşması ümdə yer tutur. Ən maraqlısı da odur ki, qəhrəman bütün sınaqlardan üzüağ çıxır, bir sözlə haqq-ədalət, xoş məram yardımçısı olur. Beləliklə, saray əyyanları arasındakı uzun məsləhət-məşvərətdən sonra təhlükəli, uzun yolu bir göz qırpımında fəth etmək üçün seçim sehirli xalçanın üzərində dayanır. Sehirli xalatın yeganə çatışmayan funksiyası isə vəzirin dili ilə belə açıqlanır: "Sən istəyirsən Firəngistana gedəsən, bu səni aparırır Ərəbistana"(4,730). Beləliklə, Məlikməmməd yola rəvan olur. Vəzirin dediyi kimi, gəlib çatır Ərəbistana. Müəllif bu məqamda "Ələddinin sehirli çırağı"ndan da bir səhnəni məqamında süjetə transfer edir. Bu səhnə Şahzadə Zübeydənin hamama yollanması ilə xarakterizə edilir. Sözügedən səhnəni Əli Əmirli, özünəməxsus çalar qatmaqla, müəllif qələmi ilə bəzədikdən, cilaladıqdan sonra təqdim edir. Belə ki, hamı əyləndiyi məqamda məlum olur ki, bu gün cümə, şahzadənin hamama gedən vaxtıdır. Əsl həngamə də elə bundan sonra başlanır, Zübeydə heç cür hamama yollanmaq, sudan qorxduğu üçün çimmək istəmir. Xəlifə ərköyün qızının bütün şıltaqlıqlarına, hətta günahsız, sadəcə siması çirkin olduğu üçün bir qocanın edamını istəməsi arzusunu da həyata keçirməyə razı olur. Lakin son məqamda ərkəsöyün şahzadə istəyini geri götürür və cəlladı qovur. Padşah qızından növbəti dəfə nə istədiyini soruşduqda isə o cavabında utanmadan, birbaşa ərə getmək arzusunda olduğunu bildirir. Məhz bu məqamda Məlikməmməd sehirli xalatı ilə göydən düşür. Məlikməmmədlə şahzadə Zübeydə qarşılaşır və bir könüldən min könülə biri-birilərinə aşıq olurlar. Məlikməmməd tanışlıq verdikdən sonra şahzadəni atasından istəyir. Şahzadə də məhz Məlikməmmədə ərə getmək istədiyini bildirir. Maraqlı səhnə padşahın bu izdivaca razılığı ilə bitir. Lakin Məlikməmməd qızı indi yox, sehirli almaları əldə edib, qayıdanbaş özü ilə ölkəsinə aparacağını açıqlayır. Beləliklə, xatircəmlik üzüyü taxıldıqdan sonra qəhrəman yola düşür. Bu dəfə isə sehirli xalat onu İspaniyaya aparır. O, bu məmləkətdə Karmen adlı əfsanəvi xanımdan sehirli almaları neçə əldə edə biləcəyini öyrənir. Uzun mücadilədən sonra qəhrəman Elladaya çatır. Karmenin dediyi qayda üzrə ağacda qalan hər iki almanı dərib əvvəl nişanlısını götürür, eləcə də şərtə əsasən almalardan birini qayınatasına təqdim edir. Sonra isə doğma məmləkətinə yola

düşür. Məlikməmmədin gətirdiyi almanı atası yeyir və özünün həmyaşıdına çevrilir (4,726). Novruz bayramı ilə başlanan əsər, elə Novruz bayramı ilə də bitir. Sadəcə Novruz bayramına Məlikməmmədlə Zübeydənin toyu da ayrıca bir rəng qatır. Bu məqam əsərdə olduqca pozitiv, rəngarəng notlarla təsvir edilir.

Göründüyü kimi, "Sehirli alma" və "Məlikməmməd"in süjeti arasındakı bənzərlik göz önündədir. "Məlikməmməd" nağılında olduğu kimi, "Sehirli alma" da əsas məramlardan birincisi dünya mif modelində önəmli yer tutan həyat, arzu, əbədilik ağacına yönəldilir. Bu hadisə isə hər iki nümunədə atanın oğluna tapşırığından sonra baş verir. Nağıllarımız həm də milli-mental dəyərləri qatı şəkildə ehtiva etdiyi üçün süjetdə ata, ümumiyyətlə, valideyn, ağsaqqal, böyük sözü birmənalı şəkildə yerinə yetirilir. Lakin Əli Əmirlinin digər pyeslərində olduğu kimi, burada da özəl dəst-xətti, təkrarolunmaz yanaşma tərzi heç də gözdən yayınmır. Belə ki, ənənəvi süjetə müasir çalarların qatqısı müəllif tərəfindən ustadcasına, yerli-yerində verilir. Həmçinin Məlikməmməd və personajların dilində yer alan müasir, çox yayılan əcnəbi sözlər də mətnə xüsusi ahəng qatır, oxucu tərəfindən xoş, gülüşlə qarşılanır. Ələlxüsus da Məlikməmmədin sehirli xalatı geydikdən sonra "Ayravana, ayravana, çandrika! Çitraxuda, çitraxuda, işvara!" söyləməsi uşaq yaddaşımızı təzələyir, canlandırır. Bu xüsusiyyət "Sehirli xalat" filmindəki eyni sözləri ehtiva edən, az qala uşaq oyunları zamanı öcəşmə, sanama, düzgü, acıtma və sair uşaq nəğmələri arasında yer alan "Ayravana, ayravana, çandrika! Çitraxuda, çitraxuda, işvara!" məşhur cümləsini yada salır.

Göründüyü kimi, Əli Əmirlinin komediyalarında ənənəviliklə müasirlik, köhnəliklə yenilik qovuşuq şəkildə təzahür edir. Müəllifin qəhrəmanını məşhur nağıl qəhrəmanının adı ilə Məlikməmməd adlandırması da təsadüfi deyildir. Çünki hər bir xalqın tarixi keçmişi, adət-ənənəsi, arzu-istəkləri, qəhrəmanlıq və bu kimi müsbət keyfiyyətləri yaddaşlara məhz nağıllardan yol alır. Bu onunla xarakterizə olunur ki, nağıllar həm böyüklərin, həm də uşaqların eyni dərəcədə sevdiyi bir janrdır. Etiraf edək ki, insan nə qədər yaşa dolsa da, uşaqlıq yaddaşına xəyanət edə bilmir, əksinə onu əzizləyir, məhəbbətlə anır. Nağıllar da məhz uşaqlıqdan bizim yaddaşımıza silinməz izlər buraxır, elə iz ki, ömür boyu bizi müşayiət edir. Nağılların önəmliliyini, insan yaddaşındakı funksiyasını görkəmli folklorşünaslar da vurğulamışlar. Bu sahədə görkəmli folklorşünas alim, professor Ramazan Qafarlının tədqiqatı, nağılın funksiyasını dürüst şəkildə təsvir etməsi maraq doğurur. Folklorşünas alim bu barədə belə yazır: "Azərbaycan folklorunun mühüm janrlarından biri olan nağıllarda xalqımızın çoxəsrlik tarixi, məişət tərzi, dünyagörüşü, adət-ənənələri, qəhrəmanlığı, mübarizəsi, istək və arzuları özünəməxsus şəkildə əks etdirilir. Poetik şifahi xalq yaradıcılığının başqa janrları ilə müqayisədə nağıllar hadisələri daha geniş, ətraflı, yerli-yataqlı, anlaşıqlı və canlı təsvir edir, ona görə də əsrlər boyu – yazı və kitabın kəşfindən qabaq da, sonra da xalqın diqqətini maqnit kimi özünə çəkmişdir. Nağıllarda epik ənənədə süjetqurmanın əsası qoyulmuş, təsvir üsulları formalaşmış, bədii yaradıcılığın prinsipləri meydana gəlmişdir. Nağıllar bütün zamanlarda yaranan ədəbiyyat və incəsənət əsərlərinin mayası, qaynağı, bir çox hallarda isə özülü olmuşdur. Onlarda şifahi xalq yaradıcılığına xas bütün xüsusiyyətlərə rast gəlirik" (6, 141-142). Görkəmli alimin fikrinə istina-

dən bir daha demək olar ki, doğrudan da nağıllar bütün dövrlərin həm ədəbiyyat, həm də incəsənət əsərlərinin mayasıdır, təməl daşıdır. Məhz bu səbəb də nağılların bütün dövrlər üçün aktuallığını təmin edir. Qeyd edək ki, tədqiqata cəlb etdiyimiz "Sehirli alma" komediyasında "Məlikməmməd"lə yanaşı, "Ələddinin sehirli çırağı" və başqa nağıl, əfsanə süjetlərinin də təsiri çox sezilir.

Əli Əmirli "Sehirli alma" pyesində nağıl süjetləri ilə yanaşı, digər folklor elementlərinə də yer ayırır. Belə ki, nağıl-kollajının remarkasındakı Novruz şənliyi, ilaxır çərşənbə motivləri olduqca canlı şəkildə təqdim edilir. Bu məqam belə təsvir edilir: "Səhnədə Novruz şənliyidir. Şən ovqatlı musiqi sədaları altında bir-birini təbrik edən, bayramlaşan, öpüşən, yumurta döyüşdürən cavanlar, qızlar, oğlanlar. ... Kosa-kosa oyunu göstərən bir dəstə də mərkəzə keçir və kiçik səhnəciklərini nümayiş etdirir. Sözü çəp gələn Kosa və Keçəl höcətləşir. Tutaşırlar. Oynaq musiqini döyüş ovqatlı musiqi əvəzləyir. Dərhal adamlar iki dəstəyə bölünür: Kosanın tərəfdarları, Keçəlin tərəfdarları. Cəngi altında rəqsvari dava başlayır. Bir neçə gənc qılınca əl atır. Rəqs qılınclarla davam edir. Döyüş-rəqsin kulminasiyasında bir dəstə kəlağayılı qız səhnəyə gəlir və yaylıqlarını döyüşənlərin arasına atırlar. Döyüşənlər aralanır. Zərif musiqi altında qızlar süzür, sonra bu, kişili-qadınlı rəqsə çevrilir" (4, 727). Burada Novruz bayramı, bu sevilən bayramda yerinə yetirilən rituallar, eləcə də Cəngi, Yallı oyunu, sülh, barışıq məqsədilə qadınlar tərəfindən örpəklərinin döyüşənlərin arasına atılması və sair bu kimi adət-ənənələr təbii şəkildə təsvir edilir. Müəllif əsərdə milli adət-ənənələrlə yanaşı, başqa xalqların rəqs və oyunlarını canlandırmağı da unutmur. Bu xüsusiyyət özünü Məlikməmmədin sehirli almanın dalınca yollanan zaman bir neçə vilayətdə olması ilə müşayiət edilir. Ümumiyyətlə, nağılların təsnifatında xüsusi yer tutan sehirli nağıllarda qəhrəmanın uzaq ellərə səfəri və olduğu yerlərdə sınaqlarla qarşılaşması geniş yer tutur. Ən maraqlısı da odur ki, qəhrəman bütün sınaqlardan üzüağ çıxır, bir sözlə haqq-ədalət, xoş məram yardımçısı olur. "Sehirli alma"da da Məlikməmmədin hədəfində olduğu yerə eniş etməmişdən öncə, hələ remarkada sözügedən məmləkətin ab-havası, musiqisi canlanır. Bir sözlə oxucuda məmləkət haqqında bir növ təəssürat yaradılır. Məsələn, Ərəbistanda xəlifənin sarayı belə təsvir edilir: "Xəlifə taxtda oturub, ətrafında əyan-əşrəf. Ortada qızlar göbək rəqsi oynayır" (4,732), başqa yerdə isə İspaniya belə təsvir edilir: "Qaranlıqda ispan musiqisi-flamenko səslənir. Milli geyimli maskalı qadınlar, kişilər rəqs edir. Bir kişi və iki qadın yanaşı oturub, kante (muğama oxşayan mahnı) oxuyur rəqs edənləri qızışdırırlar... Rəqs yavaş-yavaş qızışır, hamı aralanır, ortada bir Kişi ilə Qadın qalır. Hamının diqqəti onlardadır. Məlikməmməd də maraqla baxır oynayanlara. Kişi qadını qəfil qucaqlayır, öpmək istəyir. Qadın onu hikkə ilə itələyir. Pərt olan Kişi bıçağa əl atır, adamlar qışqırışır. Qadın kişinin bu hərəkətindən qeyzlənib qorxmadan onunla döş-döşə dayanır" (4,739) və yaxud da qədim Elladanın təsvirinə baxaq: "... Elə qaranlıqda "Sirtaki" rəqsinin musiqisi səslənir. İşıq tədricən artır. Bura qədim Elladadır. Gənc oğlanlar sirtaki rəqsini ifa edirlər. Rəqs edənlər tədricən səhnəyə gələn tamaşaçılarla əhatə olunurlar. Musiqi və rəqs qızışdıqca səhnədə çoşqulu ovqat yaranır... Qızların dəstəsi də rəqsə qoşulur. Rəqsin sürəti artır..." (4,744). Burada əcnəbi rəqs və oyunların canlandırılması zamanı, səhnə

quruluşunun da həmən sözügedən ab-havaya uyğunlaşması diqqət çəkir. İlk baxışda adi görünə bilən bu səhnələr, əslində bir daha müəllifin professionallığına dəlalət edir. Çünki öz xalqı ilə bərabər, əcnəbi xalqların da ədəbiyyatına, incəsənətinə bələd olan yazıçı belə canlı, sözügüdən məmləkətin ab-havasına uyğun təqdimat edə bilər. Bu xüsusiyyətlər isə Əli Əmirli yaradıcılığına məhrəm olub, əsrarəngiz səhnələrin canlandırılmasına zəmin yaradır.

Nəticə. "Sehirli alma" nağıl-kollajında müəllifin folklordan yazılı mətnə transferi olduqca uğurludur. Şübhəsiz, burada müraciət edilən folklor janrlarının, ən çox da nağılların çağdaş həyatla səsləşməsi, süjetə müasir çalarların əlavə edilməsi, məqamında bədii təsvir vasitələrinin gündəmdə olan ifadələrlə əvəzlənməsi xüsusilə seçilir. Məhz bu xüsusiyyət də Əli Əmirli komediyalarını çağdaş dövrümüzdə çox yer alan bayağılıqdan, yersiz hırıltıdan, beyni yormaqdan kənar edir, əksinə sağlam, uzunömürlü və düşündürücü gülüşlə xarakterizə olunmasına zəmin yaradır.

ƏDƏBİYYAT

1.Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı: Maarif,1978, 236 s.

2.Azərbaycan nağılları. Beş cilddə. IV cild, Bakı: Şərq-Qərb, 2005, 336 s.

3.Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild, Bakı: Avrasiya Press.440 s.

4.Əmirli Ə. Komediyalar. Bakı: "Zərdabi Nəşr" MMC,2025, 800 s.

5.İslamzadə A. "Məlikməmməd" nağılında alma motivinin qeyri-ənənəvi funksional-semantik konteksti". AMEA Folklor İnstitutu. "Dədə Qorqud". Elmi-ədəbi toplu III (90). Bakı, 2025, s.55-66.

6.Qafarlı R. Mif, əfsanə, nağıl və epos (Şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU-nun Nəşri, 2011,780 s.

7. Rəhimli İ. Sadədən mürəkkəbə açılan pəncərə. Ədəbiyyat qəzeti. 09.03.2026.

8.Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 304 s.